4 kvadratı - ideal davamlı və dayanıqlı struktur təsvirinin rəmzidir, eləcə də davamlı inkişaf konsepsiyasını əks etdirir.

“4” işarəli loqotip psixoloji cəhətdən möhkəm və dayanıqlılıq ilə əlaqələndirilir, eyni zamanda düzgünlüyü, səmimiliyi və əxlaqı nümayiş etdirməklə bərabər təbiəti mühafizə fəaliyyəti sahəsində yeni konsepsiyanın prinsiplərini özündə əks etdirir.

“4” rəmzi - vahidliyi, birliyi, inteqrasiyanı, möhkəmliliyi, sərtliyi və üzunömürlülüyü özündə əks etdirir.

Bölünmüş kvadrat - bəşəriyyətə verilmiş yerin və məhsuldarlığın rəmzidir!

“4 və kvadrat” dünyanın struktur modelinin elementar (dörd ünsür - Torpaq, Od, Su, Hava), yer üzü (dünyanın dörd tərəfi, insanın yer üzərində istiqamətini təyin etməsi), zaman (ilin dörd mövsümü, insan həyatının dörd mərhələsi, bəşəriyyətin 4 epoxası) və sosial cəhətdən əsası kimi çıxış edir.

Günəş rəmzli sarı kvadrat- elmin, müşahidənin və təhlilin (sarı rəngin rəmzi), enerjinin, ətraf mühitə aşağı risklə təsir edən bərpa olunan enerji mənbələrindən istifadə olunan alternativ enerjinin, ekoloji cəhətdən səmərəli texnologiyaların, kosmik tədqiqatların və müasir izləmə, monitorinq mənbələrinin inkişafının rəmzidir.

Yarpaq rəmzli yaşıl kvadrat- iradə, əzm və sabitlik (yaşıl rəngin rəmzidir), bioloji müxtəlifliyin, meşə resurslarının, “yaşıl” texnologiyaların və “yaşıl” turizmin, “yaşıl təfəkkür və davranışın” maarifləndirilməsinin rəmzidir.

Dağ, zirvə rəmzli qəhvəyi kvadrat- sabitlilik, sakitlik, güc (qəhvəyi rəngin rəmzidir), torpağın, məhsuldarlığın təsvirinin- bəşəriyyətin mövcudluğunun əsas sütununun, ölkənin relyefinin, dağ silsilələrinin və zirvələrinin, mineral və xammal ehtiyatlarının, palçıq vulkanlarının, filiz və qeyri-metal mineralların, tarixi dəyərlərin, neft, qaz- enerji təbii ehtiyatların rəmzidir.

Dalğa rəmzli göy və mavi kvadrat - mənəviyyatın, təmizliyin, həqiqətin, Şərqdə - səmanın, atmosferin, su resurslarının, hidrometeorologiyanın, su və havanın maddələr dövriyyəsinin mühafizəsinin, düşünmənin (göy və mavi rənglərin rəmzidir) rəmzidir.